## Niyə MBA Proqramı?

- Siz Şərq ilə Qərbin qovuşuğunda və Xəzər dənizinin sahilində yerləşən, sabitliyin hökm sürdüyü, bəşəri dəyərləri və multikulturalizimi təşviq edən, dini və etnik tolerantlığın mövcud olduğu Azərbaycanda təhsil alacaqsınız;
- MBA Proqramını seçməyiniz sizin uğurlu qərarınızdır;
- MBA Proqramı sizi biznes mütəxəssisi kimi formalaşdırır. Bu sizin potensial imkanlarınızı inkişaf etdirir və onları genişləndirir. MBA proqramında sizin magistr yoldaşlarınız da ən azı sizin kimi bacarıqlı və çalışqan olacaqdır. Bu o deməkdir ki, professor-müəllim heyətinin gözləntiləri yüksək olacaqdır;
- İxtisaslaşmalar da tədris **Azərbaycan, İngilis və Rus** dillərində aparılır;
- MBA Proqramı fikir müxtəlifliyinə hörmət edən, enerjili, bacarıqlı, təşəbbüskar və nailiyyətə meylli xüsusi bir proqramdır. Burada təhsil almaqla siz dinamik bir proqrama qoşulursunuz və bununla da MBA proqramının innovativ inkişafı ilə birgə uğur qazanırsınız, bacarıq və təcrübə toplayırsınız;
- Elmi-tədqiqat təşəbbüsünüzü təmin edən "İnkişaf iqtisadiyyatı" və "Tətbiqi süni intellekt" tədqiqat mərkəzləri və MBA proqramının ixtisaslaşmaları üzrə xüsusi tədqiqat altbölmələri yaradılmışdır;
- MBA Proqramında çalışan 150-dən artıq professor-müəllim heyətinin əksəriyyətini ABŞ, Kanada, İngiltərə, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən qabaqcıl universitetlərini bitirmiş iqtisad üzrə fəlsəfə doktorları, beynəlxalq sertifikarlı peşəkarlar və şirkət rəhbərləri təşkil edir;
- Müəllimlər tədris prosesində elmi məhsullarından və praktik məsələlərdən geniş istifadə edirlər;
- Magistrantlara tənqidi düşünmə, liderlik bacarıqları, biznes sahəsində peşəkar dildə danışmaq bacarıqları, problem həll etmə və analitik bacarıqları, adekvat və çevik qərar vermə bacarıqları, komanda da birgə işləmək, interaktiv öyrənmə tədbirləri, simulyasiyalar və real dünya ssenariləri tələbələri üzrə qeyri-standart düşünməyə və müasir işçi qüvvəsində uğur qazanmaq üçün lazım olan bacarıqları (yumşaq bacarıqlar, sərt bacarıqlar, rəqəmsal bacarıqlar, akademik bacarıqlar, rəqəmsal savadlılıq, süni intelekt və s.) inkişaf etdirməyə imkan verir.
- Fənlər dünyanın ən qabaqcıl ali təhsil ocaqlarının proqramlarına uyğunlaşdırılmışdır.